# «Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli, 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Gömrük orqanlarında xidmət haqqında» Əsasnamə»yə əlavələr və dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2010-cu il 22 iyun tarixli, 1046-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli, 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Gömrük orqanlarında xidmət haqqında» Əsasnamə»yə əlavələr və dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2010-cu il 22 iyun tarixli, 1046-IIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, üç ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının «Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli, 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Gömrük orqanlarında xidmət haqqında» Əsasnamə»yə əlavələr və dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2010-cu il 22 iyun tarixli, 1046-IIIQD nömrəli Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli, 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Gömrük orqanlarında xidmət haqqında» Əsasnamə»nin 11-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqənin keçirilməsi qaydası barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. xüsusi və ya hərbi rütbədən məhrumetmə prosedurunun dəqiq müəyyən edilməsi ilə bağlı qanunvericilik aktlarına dəyişikliklərin edilməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.5. öz səlahiyyətləri daxilində «Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli, 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Gömrük orqanlarında xidmət haqqında» Əsasnamə»yə əlavələr və dəyişikliklər edilməsi barədə» Azərbaycan

Respublikasının 2010-cu il 22 iyun tarixli, 1046-IIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. «Gömrük orqanlarında xidmət haqqında» Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli, 243 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 1, maddə 22; 2004-cü il, № 12, maddə 1001; 2007-ci il, № 11, maddə 1117) aşağıdakı əlavə və dəyişikliklər edilsin:

2.1. 2-ci bəndin ikinci abzasında *«Əsasnamənin»* sözündən sonra *«11-ci maddəsinin ikinci hissəsində,»* sözləri əlavə edilsin və üçüncü abzasında *«və 98-ci maddəsinin ikinci hissəsində»* sözləri *«, 98-ci maddəsinin ikinci hissəsində və 100-cü maddəsində»* sözləri ilə əvəz edilsin;

2.2. 3-cü bənd çıxarılsın.

3. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 dekabr tarixli, 155 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 12, maddə 1001; 2008-ci il, № 12, maddə 1057) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı»nın sonuna aşağıdakı məzmunda abzas əlavə edilsin:

*«Tibbi Xidmət İdarəsinin rəisi tibb xidməti general-mayoru».*

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 14 iyul 2010-cu il***

***№ 298***

***«Respublika» qəzetində dərc edilmişdir (18 iyul 2010-cu il, № 152) («VneshExpertService» LLC).***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (20 iyul 2010-cu il, № 154) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 iyul 2010-cu il, № 7 (157), maddə 617) («VneshExpertService» LLC).***

© *«VneshExpertService» LLC*